# DƏYƏRLİ ŞAİRİN YENİ SÖZ SOVQATI




***TARİYEL ABBASLI,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Prezident təqaüdçüsü.***


Ədəbi yaradıcılıq elə bir meyardır ki,o yaradıcı insanın potensialını ortaya qoyur,onun yaradıcılığının ən mühüm istiqamətlərini göstərir. Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan İsmayıl İmanzadə məhz belə yaradıcı insanlarımızdandır.50 ildən çox bir müddət ərzində dostluq və yoldaşlıq elədiyim İsmayıl müəllimin də həyatı çox təlatümlü,qalmaqallı,bir sözlə diqqətçəkən olmuşdur. Yaradıcılığa başladığı andan kənd həyatını qəbul eləmiş olan şairimizin yaşam tərzi-belə demək mümkünsə-qənaətbəxş idi. Böyük bir kəndin və kolxozun partiya təşkilatına,kolxoz quruculuğu tənəzzülə uğramağa başlayan bir vaxtdan isə rayonun sosial xidmət sahələrindən birinə rəhbərlik edən İsmayıl müəllim 1993 cü ildən-ermənilərin Cəbrayılı işğal etdikdən sonra digər soydaşlarımız kimi yurd-yuvasından didərgin düşdü. Taleyinə yazılmış "əyalət şairi" möhürü onu Mingəçevir şəhərinə gətirdi. Lakin görkəmli şairimiz heç də əyalət çərçivəsində qalmadı. O AYB-nin Mingəçevir bölməsini yaratmaqla bu cavan və ədəbi mühitdən nisbətən kənar şəhərdə böyük bir poeziya ab-havası,ədəbi inkişaf və irəliləyiş yaratdı. Neçə-neçə gənc və istedadlı yazar Mingəçevir bölməsinin xeyir-duası ilə respublikanın ədəbi-bədii məkanında öz sözünü dedi. İsmayıl müəllimin isə neçə-neçə şeir və publisistik kitabları,seşilmiş əsərləri çap olundu.Bütün bunlar ustad şairimizin yaradıcılığına böyük önəm verdi,onu daha da yaxından tanıtdı. Mingəçevirdə yaşadığı ilk illərdə:

*Qalmayıb heç nəyi dünya varından*
*Nə vaxtdır danışıb dinmir arından,*
*Özünə dam tikib arzularından-*
*Bir şair yaşayır Mingəçevirdə*

-deyən şairimiz 30 ildən artıq yurd itkiləri,yurd ağrıları,doğma vətən həsrətilə yazdı yaratdı. Onun 30 ildən artıq yaradıcılıq fəaliyyəti yslnız doğma yurd həsrətinə köklənmişdi. Elə sözügedən şeirdə də şair yazırdı:

Kürü Araz bilir,Bozdağı Diri,
Qalıb Cəbrayılda qibləsi,piri,
Sızlaya-sızlaya nə vaxtdan bəri,
Bir şair yaşayır
Mingəçevirdə.

Nəhayət ədalət qalib gəldi. Cəsur vətən oğullarının ağlasığmaz şücaəti,-yenilməz Azərbaycan Ordusunun və müzəffər Ali Baş Komandanımızın "dəmir yumruğunun" möcüzəsi sayəsində doğma Qarabağımız, işğala məruz qalmış rayon və kəndlərimiz düşməndən azad olundu. Bu böyük qələbə idi. Bu böyük savaşdan doğan Vətən Müharıbəsi idi-44 günlük Vətən Müharibəsi.

Bu möhtəşəm qələbədən sonra İ.İmanzadənin yaradıcılığı artıq başqa bir yön aldı. Bəli 30 il düşmən tapdağı altında qalan müqəddəs torpaqlarımızın yaralanmış köksünə sözlə məlhəm qoymaq. Artıq şairin şeirləri doğma torpaqlarımızın dağıdılmış gözəlliklərinin təsviri və bərpasına həsr olunmuşdur. Şuşaya gedərkən ustad şairimizin yazdığı "Şuşa etüdləri" bir silsilə təşkil edirdi.Bu silsilədə Şuşanın təbii gözəlliyi, görməli yerləri,bütün türk dünyasının mədəniyyət paytaxtının hərtərəfli tırənnümü əsas yer tuturdu. İ. İmanzadənin Mingəçevirdə yaşayarkən 50 -yə yaxın kitabı işıq üzü gördü. Görkəmli şairimizin növbəti şer kitabı qarşımızdadır. "Ürəyim açıq qapıdır" adlanan kitabda şairin son illərdə yazdığı şeirləri toplanmışdır. Həcmcə o qədər də böyük olmayan kitabın əsas bölmələrinə nəzər salırıq.(ismayıl müıllim həmişə iri həcmli kitablar çap eləməkdən kənar olub. Mən dəfələrlə ondan bunu soruşanda deyib :şeir kitablarının formatı kiçik olmalıdı ki, hər zaman ondan istifadə edə biləsən). "Ürəyim açıq qapıdır" kitabında şairin vətən, torpaq ,yurd ünvanlı şeirləri ön sırada verilmişdir. "Zəfərin mübarək Vətən" şeirində oxuyiruq:

Xoş günlərdən soraq verir,
Axşamın səhərin vətən,
Düşmənlərə göz dağıdır
Hər təzə zəfərin vətən,
İgid ərən oğulların
Tapdayıb bəndi bərəni,
Bir həmləylə sevindirdi,
Xocalını,Əsgəranı.

İ. İmanzadının bütün yaradıcılığı boyu şəhid ağrıları,şəhidlərə olan sevgi və ehtiram əsas yer tutur. Elə bu kitabdakı:

Şəhidim əhsən sənə,
Vətənə bəxş etdiyin
Zəfərin nə gözəlmiş.
Yurd amalınla birgə
Şəhid ucalığından
Tanrının dərgahına
Səfərin nə gözəlmiş.

-şeirində vətən torpağı uğrunda öz şirin canlarını qurban vermiş şəhidlərimizə ümumxalq sevgisi şi?rin və axıcı bir dillə təsvir olunur. Və şəhidlərimiz haqqında şairin düşüncələri hələ Cəbrayıl şəhidləri haqqında yazdığımız publisistik kitabların hər birində verilən bayatılarda da öz əksini tapır.

İsmayıl müəllimin yeni kitabında illər boyu onun qəlbində qövr eləmiş və yaralı misralara çevrilmiş vətən,-yurd,doğma torpaq ünvanlı şeirlər üstünlük təşkil edir. Tarıxlərə şahidlik edən,çoxlu haqsızlıqlar görən Xudafərin körpüsünə həsr olunmuş şeir necə də təsirlidir:

Ay ulu daş kitabəm, kəcavəm,
taxtım mənim,
Bakı-Təbriz biçimli
Könül paytaxtım mənim,
Vüsala həsrət qalan taleyim,
baxtım mənim,
Şahım, xanım, sultanım -
Xudafərin körpüsü.

Yaxud şairin "Arazım" şeirində oxuyuruq:

Əlim çatmır öpəm səni,
Gözlərimə təpəm səni,
Duraltdumu ləpən səni,
Lilinə qurban Arazım.

Bu misraları yaza-yaza "Araz nəmli gözlərimdən axırmış" deyən şairimiz torpaqlarımız azad olandan sonra sonsuz bir həsrət ilə ,ürək ağrısı ilə yazırdı:

Halal duzum çörəyimsən,
Saf niyyətli ürəyimsən,
Basılmayan kürəyimsən,
Bilirəm,torpaq, bilirəm.

Havam,suyumszn bir udum,
Eşqin tükənməz umudum,
Yadında qalıbmı adım,
Gəlirım,torpaq gəlirəm.

Bəli torpaq sevgisi,yurd sevgisi,-doğulduğun elə obaya olan tükənməz sevgi və istək hər bir insanın qəlbində kök atlb. Xüsusilə bu söz adamlarının xarakterində daha geniş şəkildə əks olunur, tərənnüm olunur, öyülür. İ. İmanzadənin anadan olduğu "Böyük Mərcanlı kəndim" şeirində olduğu kimi:

Sən bizim Cəbrayılın döyünən ürəyisən,
Ağoğlanın ,Dirinin qatlanmaz biləyisən,
Şah vüqarlı xalqımın arzusu ,diləyisən,
Düşmən bağrı çatladan şərəfli şanlı kəndim,
Ağır elli-obalı Böyük Mərcanlı kəndim.
Qəriblikdə həmişə uca tutdum adını,Unutmadım suyunun,çörəyinin dadını,
Yadlar qıra bilmədi qolunu,qanadını,
Alnı açıq üzü ağ-Araz ünvanlı kəndim;
Vəfalı,sədaqətli Böyük Mərcanlı kəndim.

30 il yurddan ayrı olan şairimiz özünün dediyi kimi bu 30 ildə bir an da olsun doğma yurd yerini unutmadı,-şeirlərində o yerlərlə görüşdü;

30 il yanımdan yel kimi keçdı,
Əymədim qəddimi qərib eldə də,
Sandım dönük baxtım yol azmış köçdü,
İşartı axtardım soyuq küldə də.

Və nəhayət şair bu işartını tapdı.-Doğma yurda ayaq açdı,Cəbrayılı Mərcanlını gördü. İnşallah indi torpaq yaşamağa çağırır onu.

İ. İmanzadənin şeirlərində nə qədər nisgil,vətən həsrəti,yurd ağrıları olsa da, onun yaradıcılığında ,eyni zamanda təbiət və məhəbbət mövzusu geniş yer tutur.Biz böyük məmnuniyyətlə İ. İmanzadəni məhəbbət şairi adlandıra bilərik.Hər bir yaradıcı insanın əsərləri reallığa söykənməlidir. Əgər şair vətən ağrılarından yazırsa deməli o real-lıqdan yazır, yəni olan şeylərdən, hadisələrdən yazır. Məhəbbət şeirləri də belədir. Hər bir şair sevgi -məhəbbətdən yazırsa bu sevgi onun özünün əhval-ruhiyyəsidir,başına gələnlərdir. Necə deyərlər şairlər də öz taleyin yazırlar. İsmayıl müəllimin sevgi şeirləri həddindən artıq çoxdur və bunların əksiriyyətinə bəstəkarlarımız nəğmələr, mahnılar yazmışlar. "Kimsən ay qapımı döyən","Sübha qədər yanar ocaq istəsən İsmayılın ürəyində gecələ","Necə çıxaydım qarşına","Aç qapını görüm səni " və.s. belə şeirlərdəndir.

Kitabın" Mən səni unuda bilərəmmi heç" bölümündəki şeirlər nakam eşqin şairə gətirdiyi ağrı-acılara həsr edilmişdir.Gənclik dövrlərindən qəlbinə sağalmaz yara vuran ilk məhəbbətini xatırlayan şair "Öz eşqımın qatılıyəm "adlı şeirdə yazır:

Yerə-göyə sığışmayır harayım,
İlk eşqimi harda gəzim arayım,
Heç demə" tikdiyim " sevgi sarayım
Tək bircə nəfərlik adam yeriymiş.
Ağlım,huşum yəqin o vaxt mürgülü,
Bəlkə də lal imiş bəxtımın dili
Özüm idim öz eşqimin qatili,
Ürəyim sevgimin edam yeriymiş.

Beləliklə,şairin bütün sevgi şeirlərunin mərkəzində duran beləcə nakam sevginin əzab əziyyətlərindən irəli gələn duyğusal ifadələrdir:

Bir vaxtlar sən idin nazlı yarım da,
Halal barım , bəhrəm,söz nubarım da,
Getdin izin qaldı xəyallarımda
Sənsiz yaşamadım ömrü heç vədə,

-deyən şair:

Halallıq ömrümün mayası, ilki,
Alıb aldatmağı peşə bilmədim,
Elə qorxutdu ki, gözümü sevgi,
Mən onu heç zaman nəşə bilmədim.,

-deyərək sevginin ona yalnız əzab əziyyıt, gizli göz yaşları, məhrumiyyətlər gətirdiyini bildirir. Əlbəttə şairin bütün sevgi şeirləri belə pessimist əhval-ruhiyyədə deyil. Öncə qeyd etdiyim kimi gözəl sevgi şeirlərinə çox gözəl mahnılar da yazılmışdır. Əkbəttə bütün bunlar dəyərli şairimizin uğurlarıdır.






Ümidvarıq ki İ. İmanzadənin yeni çap olunmuş "Ürəyim açıq qapıdır" adlı şeirlər kitabı həmişəki kimi oxucularımızın ruhunu oxşayacaq və müəllifə uğur gətırıcək.

Yazını İ.İmanzadının məşhur misraları ilə bitirərək demək istəyirəm ki, bu ilin dekabr ayında ustad şairimizin 80 yaşı tamam olur. İ. İmanzadə bu 32 ildə heç vaxt dostlarının və rəsmi orqanların ona yubiley keçirməsinə razılıq verməyib. Nə qədər ki Cəbrayıl işğal altındadır mən yubiley keçirməyəcəm deyib.

Ümid edirik ki,Azərbaycan Yazıçılar Birliyi və Cəbrayıl rayon İcra Hakimiyyəti böyük şairimizin 80 illik yubileyini böyük təntənə ilə qeyd edəcək. Buna onun mənəvi haqqı var:

Duyğu qəlbin gözümüdür, Kövrəkliyin özümüdür,
Ömür muncuq düzümüdür,
Harda qırıla-qırıla.

Əziz dostum ,gözəl şairim,arzu edirəm ki,ömür muncuğunun düzümü hələ uzun müddət pozulmasın. Sən bu muncuğun düzümünü hələ Cəbrayılda bir az da uzatmalısan.

***2025***